# XARİCİ ÖLKƏLƏRİN QANUNVERİCİLİYİNDƏ EKOLOJİ CİNAYƏTLƏR

**A.E. Qasımov, Ş.Ə. Hüseynova**

Milli Aviasiya Akademiyası

*Məqalədə Azərbaycan Respublikasının Daxili İşlər Orqanlarının 2017 və 2018-ci illərdə cinayətkarlığa qarşı mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətinin nəticələrinə dair yekun təhlilinə diqqət yetirilmiş, həmçinin ekoloji cinayətlərlə bağlı xarici ölkələrin qanunvericiliyinin müqayisəli təhlili aparılmışdır.*

***Açar sözlər:*** *ekoloji cinayət, konstitusiya, cinayət, məcəllə, maddə, qanun, təhlil.*

Cəmiyyətdə iqtisadi maraqlarla ekoloji maraqların üst-üstə düşməsi onların hər ikisinin qorunmasını tələb edir. Bu isə iqtisadi məsuliyyətlə yanaşı ekoloji məsuliyyət məsələsini də irəli sürür. Kəskin ekoloji məsuliyyətsizlik isə ekoloji cinayətə bərabər tutulur. Təsadüfi deyildir ki, 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında həmin məsələ xüsusi vurğu ilə bir sıra maddələrdə (maddə 39 və maddə 78) öz əksini tapmışdır. III Fəslin (Əsas insan və vətəndaş hüquqları və azadlıqları) 39-cu maddəsində şərh edilir ki, hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır və hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır. IV Fəslin (Vətəndaşların əsas vəzifələri) 78-ci maddəsində qeyd edilmişdir ki, ətraf mühitin qorunması hər bir şəxsin borcudur [1].

Eləcə də Ekoloji cinayətlərə 1 sentyabr 2000-ci il tarixdən qüvvədə olan Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsində ayrıca fəsil (XXVIII fəsil) ayrılmış və Məcəllənin 247-261-ci maddələrində aşağıdakı ekoloji cinayətlərə görə cinayət məsuliyyətinin və buna müvafiq cəzanın xüsusiyyətləri öz əksini tapmışdır. CM-nin 247-ci maddəsindən 261-ci maddəsinə kimi 15 (on beş) maddə ekoloji cinayətlərə həsr olunmuşdur.

CM-nin 247-ci maddəsində "İşlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi (qorunması) qaydalarını pozma", 248-ci maddəsində "Ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsi qaydalarını pozma", 249-cu maddəsində "Baytarlıq qaydalarını və bitki xəstəliklərinə və ziyanvericilərinə qarşı müəyyən edilmiş mübarizə qaydalarını pozma"; 250-ci maddəsində Suyu (su mənbələrini) çirkləndirmə; 251-ci maddəsində Atmosferi (havanı) çirkləndirmə; 252-ci maddəsində "Dəniz mühitini çirkləndirmə"; 253-cü maddəsində "Sahilyanı şelf haqqında Azərbaycan Respublikasının qanunvericiliyini pozma"; 254-cü maddəsində "Torpaqları korlama"; 255-ci maddəsində "Yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma"; 256-cı maddəsində "Balıq və digər su bioresurslarını qanunsuz tutma"; 257-ci maddəsində "Balıq və digər su bioresurslarının qorunması qaydalarını pozma"; 258-ci maddəsində "Qanunsuz ov etmə"; 259-cu maddəsində "Qanunsuz ağac kəsmə"; 260-cı maddəsində "Meşələri və digər yaşıllıqları məhv etmə və ya zədələmə"; 261-ci maddəsində "Xüsusi mühafizə olunan təbiət ərazilərinin və təbiət obyektlərinin mühafizə rejimini pozma" cinayət əməllərinə görə müvafiq cinayət məsuliyyəti müəyyən edilmişdir [2].

Respublika Daxili İşlər Orqanlarının 2017-ci və 2018-ci illərdə cinayətkarlığa qarşı mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətinin nəticələrinə dair yekun təhlilinə əsasən əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayının azlığına (264) görə cari ildə də MDB və Şərqi Avropa məkanında ən təhlükəsiz və sabit ölkə mövqeyi qorunaraq kriminogen durum nəzarətdə saxlanılmışdır.

Şək. 1-də verilmiş diaqramda 2017-ci ildə ölkədə olan kriminogen durum əks olunmuşdur. Göstəriciləri əks etdirən rəqəmlərə əsasən cinayətlərin strukturunda qəsdən adam öldürmə 9,5% (-17), dələduzluqlar 11,8% (-514), soyğunçuluq 16,6% (-54), quldurluq 23,6% (-39), xuliqanlıq 15,1% (-147) azalmış, oğurluqlar 9,8% (+706), qaçaqmalçılıq 19% (+8) və ekoloji cinayətlər 28,3% (+36) artmışdır [3].




Şək. 1

Şək. 2-də verilmiş diaqramda isə 2018-ci ildə ölkədə olan kriminogen durum əks olunmuşdur. Göstəriciləri əks etdirən rəqəmlərə əsasən cinayətlərin strukturunda dələduzluqlar 27,9% (-1075), quldurluqlar 4,8% (-6), oğurluqlar 0,2% (-13) azalmış, xuliqanlıq 10,4% (+86), ekolojı cinayətlər 42,3% (+69), soyğunçuluq 12,5% (+34), qəsdən adam öldürmə cinayətləri 3,7% (+6) artmışdır [4].




Şək. 2

Yuxarıda qeyd olunan Respublika Daxili İşlər Orqanlarının 2017-ci və 2018-ci illərdə cinayətkarlığa qarşı mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətinin nəticələrinə dair yekun təhlilinə əsasən ekoloji cinayətlərdə artım müşahidə olunmuşdur. Ekoloji cinayətlərin törədilməsinin insanların sağlamlığına və həyatına, habelə, ümumiyyətlə, ətraf mühitə neqativ təsirini və nəticələrini nəzərə alaraq, Azərbaycanda ekoloji vəziyyətin pisləşməsi şəraitində həmin cinayətlərlə ardıcıl mübarizənin aparılması aktualdır, dövlətin sosial-ictimai və iqtisadi inkişafı, cəmiyyətin normal fəaliyyəti üçün vacibdir. Bu növ cinayətlərin qarşısının alınması və onlarla mübarizə üçün nəinki sosial-iqtisadi və təşkilati-texniki, eləcə də hüquqi xarakterli tədbirlərin görülməsi zəruridir.

Ekoloji cinayətlərlə bağlı qabaqcıl elmi təcrübə və nailiyyətlərin üstünlüklərini qəbul etmədən heç bir ölkədə müvafiq elm sahəsi hərtərəfli və dinamik inkişaf edə bilməz. Həmçinin ekoloji cinayətlərlə bağlı xarici ölkələrin qanunvericiliyinin öyrənilməsi və müqayisəli təhlili də zəruri və əhəmiyyətli bir işdir. Çünki müqayisəli hüquqşünaslıq hüquqi hadisələrin öyrənilməsi və tədqiqatı metodudur. Fransız alimi M. Ansel haqlı olaraq göstərmişdir ki, hüquqşünasın xarici ölkələrin hüquq təcrübəsini öyrənməsi onun öz ölkəsinin hüququnu daha yaxşı bilməsinə kömək

edir, onu öz ölkəsinin hüququnu hətta çox yaxşı bilməklə əldə edə bilməyəcəyi ideya və dəillərlə silahlandırır [5]. Hüquqşünas alimlərin mülahizələrinə görə, müqayisəli hüquqşünaslıq həmişə hüquqi təzahürlərin dərin və miqyaslı tədqiq edilməsinə və nəticə etibarı ilə təkmilləşdirilməsinə geniş imkanlar açır. Hüquqi təzahürlərin ümumi və spesifik xüsusiyyətləri, xarici ölkələrdəki müvəqqəti və stabil hüquqi vəziyyət və onların təsiri, bu ölkələrdə qanunvericiliyin dəyişilməsi, hüquqi aktların qəbul edilməsi və dəyişilməsi amilləri, hüququn həyata keçirilməsinə imkan yaradan və ya ona mane olan şərtlərin tədqiq edilməsi, həmin hüquqi təzahürlərin bu və ya digər ölkədə mövcud münasibətlər nəzərə alınmaqla daha tam təhlil edilməsinə və dəqiq qiymətləndirilməsinə obyektiv şərait yaradır [6].

H.C. Qattericin təbirincə, müqayisəli hüquqşünaslıq hüquqi hadisələrin öyrənilməsi və tədqiqatı metodudur [7]. Müqayisəli hüquqşünaslıq metodu müasir hüquqi tədqiqatların ayrılmaz hissəsidir. O, həm xarici ölkələrin qanunvericiliyində hüquq institutlarının xüsusiyyətlərinin aydınlaşdırılmasına, həm də Azərbaycan Respublikasının qanunlarının ayrı-ayrı norma-müddəalarının komparativist təhlili əsasında tənqidi qiymətləndirilməsinə xidmət edir.

Cinayət hüququnda müqayisəli-hüquqi metod – bu, cinayət-hüquqi gerçəkliyin öz obyektlərinə malik olan fərqlərinin və oxşarlıqlarının (ümumi və xüsusi) aşkar olunması məqsədi ilə qanunvericiliyin tədqiqi üsullarının, cinayətlərlə bağlı, o cümlədən ekoloji cinayətlərlə bağlı hüquq normaları və institutlarının predmetinin elmi cəhətdən əsaslandırılmış məcmusudur. Komparativistika aşağıdakılarla fərqlənən obyektiv amillərlə şərtləşir:

1) Azərbaycanın və Müstəqil Dövlətlər Birliyi ölkələrinin dünyanın hüquq sistemində yerləşməsi;
2) Beynəlxalq hüququn hamılıqla tanınmış norma və prinsiplərinin milli hüquq sistemlərinə daxil edilməsi;
3) Beynəlxalq hüququn (o cümlədən beynəlxalq cinayət hüququnun) və milli hüququn bir-birinə qarşılıqlı təsirinin gücləndirilməsi, cinayətlərlə, o cümlədən ekoloji cinayətlərlə bağlı qanunvericiliyin implementasiyası, yaxınlaşması və unifikasiyası.

Müxtəlif dövlətlərin hüquq sistemlərinin müqayisəsi öz milli hüququnun müsbət və mənfi cəhətlərini daha yaxşı bilməyə imkan verir, çünki özünün hüquq sisteminin spesifik xüsusiyyətləri digər sistemlərlə müqayisə edilərkən daha yaxşı təzahür edir. Bu və ya digər problemlərin oxşar həllinin, hüquqi texnikanın oxşarlığının və digər ümumi cəhətlərin aşkar olunması gələcəkdə digər hüquq sisteminin müsbət təcrübəsindən istifadə etməyə və əksinə, səhvlərdən qaçmağa, yəni buna əsasən ölkə qanunvericiliyini səmərəli təkmilləşdirməyə imkan verir. Bundan başqa, müasir dövrdə milli hüquq sistemini əlahiddələşdirməyə və onu xarici təsirdən diqqətlə qorumağa artıq nail olmaq mümkün deyil. Bu əlçatmazdır, çünki elə bir dövlət yoxdur ki, beynəlxalq münasibətlər bu və ya başqa cür cəlb edilməklə öz daxili hüququnu digər dövlətlərin hüququ ilə və beynəlxalq hüquqla razılaşdırmaq məcburiyyətində qalmasın.

Xarici ölkələrin qanunvericiliklərinin təhlili göstərir ki, ayrı-ayrı xarici ölkələrin qanunvericiliyində ekoloji cinayətlərlə bağlı normaların bir-birinə uyğunlaşdırılması baxımından müəyyən məqamlar vardır. Bu məqamların dərindən öyrənilməsi tələb olunur. Hazırkı şəraitdə ekoloji cinayətlərlə bağlı vahid hüquqi məkanın yaradılması olduqca zəruridir və bu, baxılan problemi daha da aktuallaşdırır. Y.A. Tixomirov çox düzgün olaraq yazır: "Dövlətlərin bir-birinə yaxınlaşmasını çətinləşdirən milli qanunvericiliklərin normalarının fərqli olması onların yaxınlaşdırılmasının xüsusi üsuluna müraciət etmək istəyi doğurur. Burada milli qanunvericiliklərin üst-üstə düşməyən normaları əvəzinə ictimai münasibətləri vahid şəkildə tənzimləyən, onların ümumiliyi üçün əsas yaradan unifikasiya edilmiş hüquqi normalar nəzərdə tutulur.

Həm dövlətlər arasında, həm də dövlətin daxilində münasibətlərin eyni şəkildə hüquqi tənzimlənməsi onların səmərəliliyinin yüksəldilməsinə və hüquqi kolliziyaların qarşısının alınmasına kömək edir" [8].

Mərhum rus kriminalisti N.D. Segeyevski yazırdı: "Elmi tədqiqat hər hansı tək bir xalqın (vətən hüququ ilə) müsbət hüququ ilə məhdudlaşa bilməz. Zəruri material qismində digər dövlətlərin müəyyən hüququnun tərifləri də cəlb edilməlidir. Sivil xalqa qapalı həyat yaraşmır, beynəlxalq təsir bütün sferalarda özünü göstərir və biz onu təcrid edə bilmərik". O, eyni zamanda

xəbərdarlıq edərək bildirirdi: “Yadellilərin materialından istifadə edilməsində bütün vəzifə ondan ibarətdir ki, ona onun malik olmadığı mənanı verməo, o, kor təlqinetmə predmeti ilə deyil, digər xalqların təcrübəsi və hazır biliklər ehtiyatı ilə tanışlıq üçün vasitəyə xidmət etməlidir” [9].

Qeyd etməyi zəruri hesab edirik ki, ayrı-ayrı dövlətlər və beynəlxalq birliklər uzun illər ərzində ətraf mühitin mühafizəsi problemlərinə bütövlükdə etinasız yanaşmışlar. XX yüzilliyin ikinci yarısında dövlətlərin üzləşdikləri ekoloji fəlakətlər bütün beynəlxalq birliyə nümayiş etdirdi ki, ictimai münasibətlərin bu sahəsində etinasızlıq yolverilməzdir, bundan başqa, yetişmiş problemlər özünün məqsədyönlü və əsaslı həllini tələb edirdi [10].

Sivilizasiyanın inkişafının müasir mərhələsində insanın ətraf mühitə mənfi təsirinə görə dünyanın əksər ölkələri tərəfindən ekoloji cinayətlərlə əlaqəli olan şəxslərin məsuliyyət və cəza məsələlərinə kifayət qədər diqqət yetirilir. Hal-hazırda təbii ətraf mühit əleyhinə yönələn cinayətkar əməllərə görə hüquqi məsuliyyətin növlərindən biri kimi, cinayət məsuliyyəti inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlərin praktiki olaraq əksəriyyətində nəzərdə tutulmuşdur.

Müxtəlif ölkələrin qanunvericiliyinin və hüquqi məsuliyyət sisteminin inkişaf ənənələrinə əsaslanaraq, dünya birliyi dövlətlərinin əksəriyyəti ətraf mühitə zərər vuran cinayətlər törətmiş şəxslər barəsində cinayət təqibinin daha sərt tədbirlərinin tətbiqi zərurəti haqqında tezis irəli sürmüşlər.

Qeyd etmək istərdik ki, SSRİ-nin dağılması ilə müstəqil dövlətlərə çevrilmiş bütün keçmiş müttəfiq respublikalar yeni cinayət məcəlləsi qəbul etmişlər. Məcəllələrin qəbul olunmasında MDB üzv dövlətlərinin Parlamentlərarası Assambleyasının qərarı ilə 17 fevral 1996-cı ildə Sankt-Peterburq şəhərində qəbul edilmiş tövsiyəedici qanunvericilik aktı olan Müstəqil Dövlətlər Birliyinin üzv dövlətləri üçün Model Cinayət Məcəlləsinin böyük rolunu qeyd etmək istərdik.

Model Cinayət Məcəllənin 18 maddəsi ekoloji təhlükəsizlik və təbii mühit əleyhinə cinayətlərə həsr olunmuşdur. Qeyd olunan Məcəllənin 217-ci, 223-cü, 225-ci, 226-cı, 227-ci, 229-cu, 231-ci, 232-ci maddəsinin birinci hissəsində və 233-cü maddəsində nəzərdə tutulmuş əməllər az ağır cinayətlər sayılır.

Həmin Məcəllənin 216-cı, 217-ci maddəsinin ikinci hissəsində, 218-ci maddəsində, 219-cu maddəsinin ikinci və üçüncü hissələrində, 220-ci maddəsində, 221-ci maddəsində, 222-ci maddəsində, 223-cü maddəsinin ikinci və üçüncü hissələrində, 224-cü maddəsində, 225-ci maddəsinin ikinci və üçüncü hissələrində, 227-ci maddəsinin ikinci hissəsində, 228-ci maddəsində, 229-cu maddəsinin ikinci hissəsində, 230-cu maddəsində, 231-ci maddəsinin ikinci hissəsində və 232-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş əməllər isə orta ağır cinayətlər hesab edilir.

Bildirməyi zəruri hesab edirik ki, Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin cinayət məcəllələri xeyli dərəcədə bir-birinə oxşardır. Eyni dərəcədə bütün bunlar ekoloji cinayətlərlə bağlı normalara da aiddir. X.İ.F. Hacıyev haqlı olaraq qeyd edir ki, Azərbaycan Respublikasının hüquqşünasları müqayisəli hüquqi tədqiqatlar apararkən əsas diqqəti əvvəllər eyni dövlətin tərkibində olmuş, qanunvericiliyi bizə daha yaxın olan ölkələrin, ilk növbədə isə Rusiya Federasiyasının qanunvericiliyinə yönəltməlidirlər [11].

13 iyun 1996-cı il tarixli Rusiya Federasiyası Cinayət Məcəlləsinin 26-cı fəsli (246-262-ci maddələr) [12], 22 sentyabr 1994-cü il tarixli Özbəkistan Respublikası Cinayət Məcəlləsinin 14-cü fəsli (IV bölmə; 193-204-cü maddələr) [13], 12 iyun 1997-ci il tarixli Türkmənistan Cinayət Məcəlləsinin 31-ci fəsli (311-324-cü maddələr) [14], 1 oktyabr 1997-ci il tarixli Qırğızıstan Respublikası Cinayət Məcəlləsinin 26-cı fəsli (265-279-1-ci maddələr) [15], 21 may 1998-ci il tarixli Tacikistan Respublikası Cinayət Məcəlləsinin 24-cü fəsli (220-236-cı maddələr) [16], 17 iyun 1998-ci il tarixli Latviya Respublikası Cinayət Məcəlləsinin 11-ci fəsli (96-115-1-ci maddələr) [17], 9 iyul 1999-cu il tarixli Belarus Respublikası Cinayət Məcəlləsinin 26-cı fəsli (263-284-cü maddələr) [18], 22 iyul 1999-cu il tarixli Gürcüstan Cinayət Məcəlləsinin 36-cı fəsli (287-306-cı maddələr) [19], 26 sentyabr 2000-ci il tarixli Litva Respublikası Cinayət Məcəlləsinin 38-cı fəsli (270-277-ci maddələr) [20], 5 aprel 2001-ci il tarixli Ukrayna Cinayət Məcəlləsinin 8-ci fəsli (236-254-ci maddələr) [21], 6 iyun 2001-ci il tarixli Estoniya Respublikası Cinayət Məcəlləsinin 20-ci fəsli (352-371-ci maddələr) [22], 18 aprel 2002-ci il tarixli Moldova Respublikası Cinayət Məcəlləsinin 9-cu fəsli (223-235-ci maddələr) [23], 3 iyul 2014-cü il tarixli Qazaxıstan

Respublikası Cinayət Məcəlləsinin 13-cü fəsli (324-343-cü maddələr) [24], ekoloji cinayətlərə həsr olunmuşdur.

Göründüyü kimi, keçmiş Sovet respublikalarından yalnız Özbəkistan Respublikası Model Cinayət Məcəlləsinin qəbulundan əvvəl özünün Cinayət Məcəlləsini qəbul etmişdir, digər respublikalar isə Model Cinayət Məcəlləsinin tövsiyələrinə uyğun olaraq cinayət məcəlləsinin hazırlanmasına üstünlük vermişlər.

Rusiya Federasiyası Cinayət Məcəlləsinin 246-cı maddəsi "İşlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi qaydalarını pozma", 247-ci maddəsi "Ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsi qaydalarını pozma", 248-ci maddəsi "Mikrobioloji və ya digər bioloji agentlərdən, yaxud toksinlərdən istifadə zamanı təhlükəsizlik qaydalarını pozma", 249-cu maddəsi "Baytarlıq qaydalarını və bitki xəstəliklərinə və ziyanvericilərinə qarşı müəyyən edilmiş mübarizə qaydalarını pozma", 250-ci maddəsi "Suyu çirkləndirmə", 251-ci maddəsi "Atmosferi çirkləndirmə", 252-ci maddəsi "Dəniz mühitini çirkləndirmə", 253-cü maddəsi "Sahilyanı şelf haqqında Rusiya Federasiyasının və xüsusi iqtisadi zonalar haqqında Rusiya Federasiyasının qanunvericiliyini pozma", 254-cü maddəsi "Torpaqları korlama", 255-ci maddəsi "Yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma", 256-cı maddəsi "Su bioresurslarını qanunsuz tutma", 257-ci maddəsi "Su bioresurslarının qorunması qaydalarını pozma", 258-ci maddəsi "Qanunsuz ov etmə", 258.1-ci maddəsi "Rusiya Federasiyasının Qırmızı kitabına düşmüş və (və ya) Rusiya Federasiyasının beynəlxalq müqavilələri ilə mühafizə olunan xüsusi qiymətli vəhşi heyvanları və su bioresurslarını qanunsuz tutma", 259-cu maddəsi "Rusiya Federasiyasının Qırmızı kitabına düşmüş orqanizmlər üçün zəruri olan bitki mühitini məhv etmə", 260-cı maddəsi "Meşə fonduna daxil olan ağacların qanunsuz kəsilməsi", 261-ci maddəsi "Meşələri məhv etmə və ya zədələmə", 262-ci maddəsi "Xüsusi mühafizə olunan təbiət ərazilərinin və təbiət obyektlərinin mühafizə rejimini pozma" adlanır [25].

17 fevral 1996-cı il tarixli Model Cinayət Məcəlləsinin tövsiyələrinə uyğun olaraq keçmiş Sovet respublikalarının, hazırda MDB üzvü olan ölkələrin cinayət məcəllələrində ekoloji cinayətlərə müstəqil fəsil və ya bölmə ayrılsa da, onların məzmunu bir-birindən müəyyən qədər fərqlidir. Məsələn, Belarusiya Respublikasının və Tacikistanın Cinayət Məcəlləsində ekoloji xarakterli cinayətlər ekoloji təhlükəsizlik və təbii mühit əleyhinə yönəldilmişdir. Təhlil edilən cinayətlər Ukraynanın Cinayət Məcəlləsində "Ətraf mühit əleyhinə cinayətlər" adlı fəsildə nəzərdə tutulmuşdur. Özbəkistan Respublikasında qanunverici ətraf təbii mühit əleyhinə yönələn cinayətkar əməllərin törədildiyi sferanı, müvafiq surətdə Cinayət Məcəlləsinin 4-cü bölməsini "Ekolojiya sferasında cinayətlər", XIV Fəsili isə "Ətraf mühitin və təbiətdən istifadənin mühafizəsi sferasında cinayətlər" adlandırmaqla müəyyən etmişdir.

Əgər diqqətlə nəzərdən keçirilərsə, Müstəqil Dövlətlər Birliyinin yuxarıda adları çəkilən üzv dövlətlərinin cinayət qanunvericiliyinə görə, ekoloji cinayət cinayətkar əməllərin tipik dəstidir, lakin burada cinayət hesab olunan bəzi əməllərdə fərqlər vardır. Belə ki, Belarusiya Respublikasının Cinayət Məcəlləsinin 266, 267 və 270-ci maddələrinə əsasən, əlavə olaraq aşağıdakılar fərqləndirilir:

- Ekoloji cəhətdən təhlükəli olan obyektlərin istismara qəbulu (266-cı maddə);
- Ekoloji qanunvericiliyin pozulması nəticələrinin ləğvi üzrə tədbirlər görülməməsi (267-ci maddə);
- Torf (Torf – bu, göl yataqlarındakı su səviyyəsinin düşməsiylə, bitki fəaliyyətinin ön plana çıxması nəticəsində bitkinin ölümü və bu təbiət hadisəsinin təkrarlanması ilə bitki kök və gövdələrinin toplanması nəticəsində əmələ gələn orqanik torpaq növüdür) [26] yerlərinin məhv edilməsi və ya onlara xəsarət yetirilməsi (270-ci maddə).

Diqqətəlayiq haldır ki, ekoloji qanunvericiliyin pozulması nəticələrinin ləğvi üzrə tədbirlər görülməməsinə görə cinayət məsuliyyətinin müəyyən edilməsi həmçinin Qırğızıstan Respublikası Cinayət Məcəlləsinin 274-cü maddəsində nəzərdə tutulmuşdur.

Rusiya Federasiyası Cinayət Məcəlləsinin "İşlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi qaydalarını pozma" sərlövhəli 246-cı maddəsində deyilir: "Sənaye, kənd təsərrüfatı, elmi və digər obyektlərin layihələşdirilməsi, yerləşdirilməsi, tikintisi, istismara buraxılması və

istismarı zamanı ətraf mühitin mühafizəsi qaydalarına riayət olunması üçün cavabdeh şəxslər tərəfindən bu qaydaların pozulması radioaktiv fonun əhəmiyyətli dərəcədə dəyişməsinə, insan sağlamlığına zərər vurulmasına və ya heyvanların kütləvi məhvinə və ya digər ağır nəticələrə səbəb olduqda – 120.000 (yüz iyirmi min) rubl məbləğində və ya məhkumun bir illik əmək haqqı yaxud digər gəliri məbləğində cərimə ilə və ya 480 (dörd yüz səksən) saat müddətinədək məcburi əməyə cəlb edilməklə, yaxud iki ilədək müddətə islah işləri ilə və ya müəyyən vəzifə tutma hüququndan məhrum edilərək beş ilədək müddətə məcburi əməyə cəlb edilməklə və ya üç ilədək müddətə müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

Ukrayna Cinayət Məcəlləsinin "Ekoloji təhlükəsizlik qaydalarını pozma" adlanan 236-cı maddəsi Rusiya Federasiyası Cinayət Məcəlləsinin 246-cı maddəsi ilə oxşardır. Amma Rusiya Federasiyasından, eləcə də Azərbaycan Respublikasından fərqli olaraq, Ukrayna Cinayət Məcəlləsinin 237-ci maddəsinə və Özbəkistan Respublikası Cinayət Məcəlləsinin 195-ci maddəsinə əsasən, ekoloji çirkləndirmənin nəticələrinin ləğvi üzrə tədbirlər görməmə də cinayət hesab edilir.

Ukrayna Cinayət Məcəlləsinin 238-ci maddəsinə uyğun olaraq ekoloji vəziyyət və ya əhalinin xəstəliyi haqqında məlumatları gizlətmə və ya təhrif etmə də cinayət sayılır. Oxşar norma Rusiya Federasiyası Cinayət Məcəlləsinin "Əhalinin sağlamlığı və ictimai mənəviyyat əleyhinə cinayətlər" adlı 25-ci fəslində öz əksini tapmış "İnsanların həyatı və ya sağlamlığı üçün təhlükə yaradan hallar haqqında məlumatların gizlədilməsi" sərlövhəli 237-ci maddəsində əks olunmuşdur. Amma sonuncu qeyd olunan maddə daha geniş məzmuna malikdir və əməlin digər sosial istiqamətlərini də əks etdirir.

Ukrayna Cinayət Məcəlləsində həmçinin ətraf mühitin müdafiə sistemi olmadan qurğuların layihələndirilməsi və ya istismarı (253-cü maddə), torpaqdan təsərrüffatsızcasına istifadə etmə (254-cü maddə) kimi cinayət tərkibləri nəzərdə tutulmuşdur. Qərb ölkələrinin əksəriyyətində "ekoloji cinayət" (ecological crime) termini nadir hallarda işlədilir [27]. İngilisdilli ölkələrdə bu terminin analoqu olan "environmental crime" (ətraf mühitə qarşı cinayət) [28], "crime against wild nature" (vəhşi təbiətə qarşı cinayət) [29] kimi anlayışlardan istifadə edilir.

Uzaq Şərq ölkələrində, məsələn, Çin Xalq Respublikasında ekoloji xarakterli cinayətlərə görə məsuliyyət 14 mart 1997-ci il tarixdə qəbul edilərək 1 oktyabr 1997-ci il tarixdən qüvvədə olan, 452 maddədən ibarət yeni Cinayət Məcəlləsinə uyğun meydana gəlir (338-346-cı maddələr)[30]. Çin Xalq Respublikasının 1979-cu il tarixli Cinayət Məcəlləsi ilə müqayisədə ekoloji cinayətlərin ayrı-ayrı növlərinin kəmiyyət artımı müşahidə olunur. Belə ki, qanunverici yeni Cinayət Məcəlləsində onları "Ətraf mühitə zərər vuran cinayətlər" adı altında xüsusi fəsildə (6-cı fəsildə) birləşdirmişdir. Bu hal aşkar surətdə onu nümayiş etdirir ki, iqtisadi inkişaf prosesi heç bir şübhə olmadan insanın ekologiya sferasında cinayətlər haqqında təsəvvürlərinə və biliyinə pozitiv təsir göstərmiş, bu da qanunvericilikdə özünün son dərəcə əlverişli izlərini qoymuşdur.

Çin Xalq Respublikasının Cinayət Məcəlləsinin quruluşu fərqləndirici xüsusiyyətlərə, struktur bölgüsünə malikdir, cinayətkar əməllər onda cəmiyyət üçün onların zərərindən asılı olaraq kateqoriyalar üzrə düzülmüşdür. Mürəkkəb obyektli cinayətlər müəyyən kateqoriyaya aid edilir [31]. Məsələn, Çin Xalq Respublikası Cinayət Məcəlləsinin təhlükəli tullantıların qanunsuz idxalı, təhlükəli tullantıların qanunsuz saxlanması, qanunsuz atılması, qanunsuz balıq tutma, dəniz və çay təbii ehtiyatlarını toplama kimi cinayətkar əməlləri cinayətlərin ümumi kateqoriyasına daxil edir.

"Ətraf mühitə zərər vuran cinayətlər" sərlövhəli fəsil özündə 9 (doqquz) maddəni ehtiva edən cinayətlər kimi ixtisaslaşdırılır. Belə ki, bu fəsil özündə ictimai idarəetmə qaydasına qəsd edən cinayətləri ehtiva edir, o, "İctimai qayda əleyhinə olan cinayətlər" bölməsində yerləşdirilmişdir. Bununla yanaşı, hazırda qüvvədə olan Cinayət Məcəlləsində 1979-cu il Cinayət Məcəlləsi ilə müqayisədə cəzaların sayı və yuxarı həddi artırılmış, habelə ikiqat cəza prinsipindən istifadə edilmişdir [32]. Əgər ekoloji sferada cinayət hüquqi şəxs tərəfindən törədilmişdirsə, təyin edilmiş cərimədən başqa, həmin hüquqi şəxsin rəhbəri də məsuliyyətə cəlb olunur [33].

Beləliklə, aparılmış tədqiqatlar aşağıdakı nəticələrə gəlməyə imkan verir.

SSRİ-nin dağılması ilə müstəqil dövlətlərə çevrilmiş bütün keçmiş müttəfiq respublikalar yeni cinayət məcəlləsi qəbul etmişlər. Məcəllələrin qəbul olunmasında MDB üzv dövlətlərinin

Parlamentlərarası Assambleyasının qərarı ilə 17 fevral 1996-cı ildə Sankt-Peterburq şəhərində qəbul edilmiş tövsiyəedici qanunvericilik aktı olan Müstəqil Dövlətlər Birliyinin üzv dövlətləri üçün Model Cinayət Məcəlləsinin böyük rolu olmuşdur. Belə ki, keçmiş Sovet respublikalarından yalnız Özbəkistan Respublikası Model Cinayət Məcəlləsinin qəbulundan əvvəl özünün Cinayət Məcəlləsini qəbul etmişdir, digər respublikalar isə Model Cinayət Məcəlləsinin tövsiyələrinə uyğun olaraq cinayət məcəlləsinin hazırlanmasına üstünlük vermişlər. Özündə 341 maddəni birləşdirən, 34 fəsildən ibarət Model Cinayət Məcəlləsində ekoloji xarakterli cinayətlərə ayrıca "Ekoloji təhlükəsizlik və təbii mühit əleyhinə cinayətlər" adlı ayrıca fəsil (XXVI fəsil) ayrılmış və bu Məcəllənin 216-233-cü maddələrində (18 maddədə) qeyd olunan cinayətlər öz əksini tapmışdır.

Xarici ölkələrin ekoloji cinayətlər haqqında normativ hüquqi aktlarının təhlilinə əsaslanaraq, düşünmək olar ki, bu sahədə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müqayisədə bəzi fərqlər mövcuddur. Bununla belə, xarici ölkələrin təcrübəsindən istifadə Azərbaycanda nəzərdən keçirilən cinayətlərə görə məsuliyyətin cinayət-hüquqi tənzimlənməsi səviyyəsinə müsbət təsir göstərə bilmişdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Hüquq Yayın Evi, Bakı-2018.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Hüquq Yayın Evi, Bakı-2018.
3. Respublika Daxili İşlər Orqanlarının 2017-ci ildə cinayətkarlığa qarşı mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətinin nəticələrinə dair yekun hesabatı - https://mia.gov.az/?preview/az/content/29958/.
4. Respublika Daxili İşlər Orqanlarının 2018-ci ildə cinayətkarlığa qarşı mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətinin nəticələrinə dair yekun hesabatı -https://mia.gov.az/index.php?/az/content/29975/.
5. Ансель М. Методологические проблемы сравнительного права // Очерки сравнительного права / Отв. ред. В.А. Туманов. М.: Прогресс, 1981, с. 38 (с. 36-86).
6. Тихомиров Ю.А. Курс сравнительного правоведения. Москва: Норма, 1996, с. 37.
7. Gutteridge H.C. Comparative law. Cambridge: Cambridge Universitty Press, 2015, p. 5 p.
8. Тихомиров Ю.А. Курс сравнительного правоведения. Москва: Норма, 1996, с. 59 с.
9. Сергеевский Н.Д. Русское уголовное право: пособие к лекциям. Санкт-петербург: Типография Стасюлевича, 1904, с. 8 (420 с.).
10. Голубев С.И. Уголовная ответственность и наказание за экологические преступления по законодательству зарубежных государств // Вестник экономики, права и социологии, 2014, № 3, с. 127.
11. Гаджиев Х.И.Ф. Толкование норм конституции и закона конституционными судами. Баку: Озан, 2002, с. 4.
12. Уголовный кодекс Российской Федерации от 13 июня 1996 г. Текст с изменениями и дополнениями на 20 мая 2018 г. М.: Эксмо, 2018, 336 с.
13. Уголовный кодекс Республики Узбекистан от 22 сентября 1994 года. http://online.zakon.kz/Document/?doc_id=30421110#pos=1970;-57
14. Уголовный кодекс Туркменистана от 12 июня 1997 года. https://www.legislationline.org/ru/documents/action/popup/id/14380/preview
15. Уголовный кодекс Кыргызской Республики от 1 октября 1997 года. http://online.zakon.kz/document/?doc_id=30222833#pos=3162;-36
16. Уголовный кодекс Республики Таджикистан от 21 мая 1998 года. http://online.zakon.kz/document/?doc_id=30397325#pos=2349;-52
17. Уголовный кодекс Латвийской Республики от 17 июня 1998 года. СПб: Издательство «Юридический центр Пресс», 2001, 313 с.
18. Уголовный кодекс Республики Беларусь от 9 июля 1999 года. http://online.zakon.kz/Document/?doc_id=30414984#pos=2373;-11
19. Уголовный кодекс Грузии от 22 июля 1999 года. СПб.: Издательство «Юридический центр Пресс», 2002, 409 с.

20. Уголовный кодекс Литовской Республики от 26 сентября 2000 года. СПб: Издательство «Юридический центр Пресс», 2003, 375 с.
21. Уголовный кодекс Украины 5 апреля 2001 года. http://online.zakon.kz/Document/?doc_id=30418109#pos=2085;-45
22. Уголовный кодекс Эстонской Республики от 06 июня 2001 года. СПб: Издательство «Юридический центр Пресс», 2001, 262 с.
23. Уголовный кодекс Республики Молдова от 18 апреля 2002 года. https://online.zakon.kz/Document/?doc_id=30394923#pos=2863;-42
24. Уголовный кодекс Республики Казахстан от 3 июля 2014 года. http://online.zakon.kz/m/Document/?doc_id=31575252#sub_id=3240000
25. https://www.zakonrf.info/uk/gl26/
26. Torf. https://az.wikipedia.org/wiki/Torf
27. Sollund Ragnhild. Global Harms: Ecological Crime and Speciesism. New York: Nova Science Publishers, Ins., 2008, 220 p.
28. Pink Grant, White Rob. Environmental Crime and Collaborative State Intervention. London: Palgrave Macmillan, 2016, 267 p; Brisman Avi, South Nigel, White Rob. Environmental Crime and Social Conflict: Contemporary and Emerging Issues. Burlington, USA, Ashgate Publishing Company, 2015, 328 p.
29. White Rob. Crimes Against Nature: Environmental Criminology and Ecological Justice. London: Willan Publishing, 2008, 328 p.
30. Criminal Law of the People's Republic of China. Adopted by the Second Session of the Fifth National People's Congress on July 1, 1979 and amended by the Fifth Session of the Eighth National People's Congress on March 14, 1997. Entry into forse: October 1, 1997.- https://www.fmprc.gov.cn/ce/cgvienna/eng/dbtyw/jdwt/crimelaw/t209043.htm
31. Медведев С.Н. Уголовный кодекс Китайской Народной Республики 1997 года // Северо-Кавказский федеральный университет (Ставрополь), 2013, № 2, с. 60.
32. Criminal Law of the People's Republic of China. Adopted by the Second Session of the Fifth National People's Congress on July 1, 1979 and amended by the Fifth Session of the Eighth National People's Congress on March 14, 1997. Entry into forse: October 1, 1997.- https://www.fmprc.gov.cn/ce/cgvienna/eng/dbtyw/jdwt/crimelaw/t209043.htm
33. Хунянь Лю. Юридическая ответственность за экологические правонарушения в России и Китае // Гражданин и право, 2007, № 1, с. 53.

## *ЗАКОНОДАТЕЛЬСТВО ОБ ЭКОЛОГИЧЕСКИХ ПРЕСТУПЛЕНИЯХ В ЗАРУБЕЖНЫХ СТРАНАХ*

***А.Э. Гасымов, Ш.А. Гусейнова***

*В статье был рассмотрен итоговый анализ результатов деятельности органов внутренних дел Азербайджанской Республики по борьбе с преступностью, охране общественного порядка и общественной безопасности в 2017 и 2018 годах, а также проведен сравнительный анализ законодательства зарубежных стран об экологических преступлениях.*

***Ключевые слова:*** *экологическая преступность, конституция, преступление, кодекс, статья, закон, анализ*

## *LEGISLATION ON ENVIRONMENTAL CRIMES IN FOREIGN COUNTRIES*

***A.E. Gasimov, Sh.A. Huseynova***

*The article reviewed the final analysis of the results of the activities of the internal affairs bodies of the Republic of Azerbaijan on combating crime, public order and public safety in 2017 and 2018, and also conducted a comparative analysis of the legislation of foreign countries on environmental crimes.*

***Keywords:*** *environmental crime, constitution, crime, code, article, law, analysis.*